

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 21 oktyabr 2023-cü il №80 (2792) https://mod.gov.az Qiyməti 30 qəpik

## Xankəndidə Azərbaycanın dövlət bayrağı dalğalanır!

***80-ci illərin sonlarında Azərbaycanda milli-azadlıq hərəkatı Ermənistanın ərazi iddiasına görə başlamışdı, iki dönməz tələblə davam etmişdi: Ermənistanın iddiasının kökünün kəsilməsi, dövlət müstəqilliyinin bərpası - imperiyanın ilhaqından xilas olmaq. Moskvanın siyasi və silahlı təqibləri xalqın iradəsini əyə bilmədi - Azərbaycanın dövlət müstəqilliyi bərpa edildi. Azərbaycanda hakimiyyət imkanlarını itirən Mərkəz xarici siyasəti Azərbaycanın ərazilərini işğal etmək niyyəti olan Ermənistana həm siyasi, həm də hərbi yardım edirdi; Azərbaycanın ərazilərinin 20 faizini işğal edən Ermənistan BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirmirdi, sülh danışıqlarından yayınırdı. Regionda mövcud status-kvonu saxlamaq istəyirdi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qətiyyətini, dövlətçilik şüarını unudurdu: "Azərbaycan dövləti və xalqı Qafqazda ikinci erməni dövlətinin yaranmasına imkan verməyəcək". Azərbaycan diplomatiyası ilə Azərbaycan Ordusunun mənəvi və hüquqi birliyi bu niyyəti darmadağın etdi.***



Vətən müharibəsində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xalqa müraciətləri mahiyyəti baxımından müharibənin xronikası kimi yaşanılırdı. Bu müraciətlər xalqın güvənci idi, xalq bu müraciətlərdən qələbə sorağı gözləyirdi, qələbələri Böyük Qələbənin ərəfəsində olduğumuzun təsdiqi bilirdi. Kəndlər, qəsəbələr, rayonlar işğaldan azad edilirdi, Azərbaycan Respublikasının Prezidenti bu sevinci, bu qüruru xalqa böyük qürurla bildirdi. Ordumuz noyabrın 8-də Şuşanı işğaldan azad etdi. Prezidentin böyük qürurla söylədiyi sevincli müjdələr xalqın Qələbə inamının işığına döndü - o gecə hamı ruhən Şuşadaydı, qaliblərlə nəfəs-nəfəsəydi, dumanı çəkilmiş Şuşa son 29 ilin ən gözəl gecəsini yaşayırdı - gözəl səhər açılacaqdı...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tarixi Zəfərdən sonra işğaldan azad edilmiş bütün ərazilərdə çıxışlarında Zəfərin quruculuq işləri ilə davam etdiriləcəyini bildirirdi. Bu, böyük inam idi. Xalq bu inamı Azərbaycanın sabahlarına düşən işıq bilirdi. Bu işıq xalqın dönməz sevgisi ilə əhatələnirdi. İşğaldan azad edilmiş ərazilərdə quruculuq işlərinin aparılmasına sərəncamlar verildi. Bütün ərazilərdə - Ağdamda, Füzulidə, Kəlbəcərdə, Laçında böyük miqyasda quruculuq işləri başladı.

Azərbaycan Respublikasının Prezidenti oktyabrın 15-də Xankəndidə tarixi bir gündə tarixi səfərdə oldu. Bu tarixi səfər də tarixi missiya idi! Azərbaycan dövlətçiliyinin qüdrətinin təntənəsi günü idi!

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev çıxışında dedi: "İyirmi il bundan əvvəl Prezident kimi öz vəzifə borcumu yerinə yetirməyə başlayanda qarşıma bir nömrəli vəzifə qoymuşdum ki, Azərbaycan Bayrağı o vaxt işğal altında olan bütün ərazilərdə, bütün torpaqlarda, bütün şəhər və kəndlərdə qaldırılsın". Bu niyyət bayrağımıza xitabən yazılan bayatı qüdrətli bir bəndlik şeirdə də vətəndaşlıq qayəsi ilə ifadə edilmişdi, son beyt könüllərin mehrabına dönmüşdü: "Əllərdə, könüllərdə və dillərdə qərar tut, Olsun bu Vətən torpağı başdan-başa bayraq!". Bəşəri arzu kimi, azərbaycançılığın niyyəti kimi, ədalətli müharibəmizin qalibiyyətinin təntənəsi kimi bu beyt düşüncələrimizin nizamına dönmüşdü, oktyabrın 15-də gerçəkləşdi.

"Azərbaycan torpağında heç bir tarixi, coğrafi və siyasi əsası olmayan Dağlıq Qarabağ Muxtar Vilayəti də 100 il bundan əvvəl - 1923-cü ildə yaradılmışdır. Bu, 100 ilin tarixidir. Görün, bu 100 il ərzində xalqımız nə qədər əzab çəkib, tarix bizi nə qədər sınağa çəkib. Əyilmədik, sınmadıq, o boyda böyük faciə ilə təkbaşına üz-üzə qalmışdıq, heç kim bizim yanımızda durmadı. Torpaqlarımız işğal altına düşəndə heç bir ölkə arxamızda dayanmadı, heç mənəvi dəstək də göstərmədilər. Bütün əsas güclər Ermənistanın arxasında idi və bugünkü tarix onu bir daha göstərir..." - Azərbaycan Respublikası Prezidentinin bu fikirləri tarixi gerçəkliyin ifadəsidir...

"Laçın" sərhəd-buraxılış məntəqəsi tarixi Zəfərdən sonra Azərbaycanın böyük hərbi-siyasi qələbəsi kimi tarixləşdi. Ermənistan silahlı birləşmələrinin dağılmış hissələri Xankəndidə fəaliyyət göstərən separatçı adlandırılan silahlı birləşmələrlə birlikdə Ermənistanın əmrlərini yerinə yetirir, Kəlbəcərdə, Laçında müxtəlif miqyaslı təxribatlar törədirdi. Oktyabrın 15-də Xankəndidə səfərdə olan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Azərbaycan Bayrağını Xankəndi şəhərinin mərkəzi meydanında qaldırdı. Bu, bütün azərbaycanlıların, Azərbaycanı sevənlərin hamısının qüruruna döndü. Vətən müharibəsində hər döyüş bizi illərlə arzuladığımız günə yaxınlaşdırırdı. İyirmi il bundan əvvəl Prezident kimi öz vəzifə borcunu yerinə yetirməyə başlayan Dövlət başçısı Azərbaycan Bayrağının o vaxt işğal altında olan bütün ərazilərdə, bütün torpaqlarda, bütün şəhər və kəndlərdə qaldırılacağını bildirmişdi. Xankəndidə xalqa müraciətində dedi: "Keçən ay antiterror əməliyyatı qaçılmaz idi. Azərbaycan xalqı yaxşı bilir və əminəm dünya ictimaiyyəti də yaxşı bilir ki, biz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə həll etmək istəyirdik. On yeddi il ərzində mən şəxsən mənasız və nəticəsiz danışıqlarda dəfələrlə iştirak etmişəm. Nə üçün? Çünki hesab edirdim ki, bu məsələ sülh yolu ilə həll olunmalıdır. Ancaq getdikcə ümidlər azalırdı. Ermənistanın işğalçı siyasətini bir daha təhlil edərək tam əminliklə bu gün deyə bilərəm ki, onlar bir qarış torpaq belə bizə qaytarmaq fikrində deyildilər. Əfsuslar olsun ki, bu məsələ ilə məşğul olmuş vasitəçilər faktiki olaraq münaqişəni dondurmaq istəyirdilər, münaqişəni əbədi etmək istəyirdilər. İstəyirdilər ki, bu yara heç vaxt sağalmasın. Azərbaycan xalqı və dövləti bu vəziyyətlə heç vaxt barışa bilməzdi. Mən dəfələrlə deyirdim ki, biz heç vaxt bu vəziyyətlə barışmayacağıq, heç vaxt imkan verməyəcəyik ki, bizim torpaqda ikinci erməni dövləti yaradılsın".

Birinci Qarabağ müharibəsi Xankəndidə Ermənistanın, sonra Ermənistanın siyasi təhriki (və dəstəyi) ilə qondarma “Dağlıq Qarabağ Respublikasının” bayrağının dalğalanmasına görə başlamışdı, İkinci Qarabağ müharibəsi bu bayrağın layiq olduğu yerə atılması üçün başlamışdı.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tarixi Zəfərdən sonrakı siyasi proseslərə də, hərbi əməliyyata da diqqəti çəkərək qondarma separatçı rejimin ideoloqlarının, rəhbərlərinin qanuni taleyinin bu günündən də söz açdı: "Onlar Bakıya gəlmək istəyirdilər, bizi hədələyirdilər, deyirdilər ki, onların tankları Bakı küçələrində olacaq, haqlı çıxdılar. Onların tankları Hərbi Qənimətlər Parkındadır. Onlar deyirdilər ki, Bakıya gəlib çay içəcəklər. Burada da haqlıdırlar. İndi çay içirlər, istintaq təcridxanasında...". Bu fikir erməniliyə meyillənənlərə xəbərdarlıq kimi səsləndi, belə dərk edildi. Dünya bir daha əmin oldu ki, haqqın, ədalətin qolu bükülmür, iradəsi zəifləmir, qətiyyəti sarsılmır. Bu qüdrət xalqın qüdrətidir.

Bu xəbərdarlıq revanşist meyillərin düşüncələrini də silkələyəcək. Ciddi qarşıdurma olanda, tərəflərdən biri işğala meyilli olanda, məğlubiyyətini etiraf edə bilməyəndə qalib dövlətin hər xəbərdarlığı da humanizm çaları olur. Azərbaycan həmişə bəşəri dövlət olub. Bəşəri niyyətlərin daşıyıcısı olub. İkinci Qarabağ müharibəsindən sonra da, lokal xarakterli antiterror tədbirlərindən sonra da, hərbi xuntanın süqutundan sonra da, Xankəndi şəhərinin mərkəzi meydanında Azərbaycan Bayrağı qaldırıldıqdan sonra da Azərbaycan dövlətinin ciddi xəbərdarlığıdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Xankəndidə çıxışı dünyəvi çıxışdı, bəşərilik naminə çıxışdı, Azərbaycanın ərazi bütövlüyünün bərpasının təntənəsini ifadə edən çıxışdı, azərbaycançılığın qalibiyyət çıxışıdı!..

İşğaldan azad edilmiş torpaqlarımızda dövlət bayrağımız dalğalanır. Qalibiyyət kimi! Azərbaycan Ordusunun qüdrəti kimi! Xankəndinin mərkəzi meydanında Azərbaycan Bayrağının dalğalanması bütün azərbaycanlıların, Azərbaycanın dövlətçiliyinə sayğısı olan dövlətlərin vətəndaşlarının hamısının qürurudu, şəhidlərin ruhuna gözaydınlığıdı...

**"Azərbaycan Ordusu"**

# Azərbaycan və Özbəkistan müdafiə nazirləri Buxarada görüşüblər



Özbəkistan Respublikasının müdafiə naziri general-leytenant Baxodir Kurbanovun dəvəti ilə bu ölkəyə rəsmi səfər edən Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov oktyabrın 19-da "Bahouddin Nəxşbəndi" memorial kompleksində olub.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, komplekslə tanışlıqdan sonra general-polkovnik Zakir Həsənov "Buxara" ümumqoşun poliqonuna gəlib.

Rəsmi qarşılanma mərasimi keçirilib. Müdafiə nazirləri fəxri qarovul dəstəsinin önündən keçib, hər iki ölkənin dövlət himni səsləndirilib.

Müdafiə nazirləri arasında əvvəlcə təkbətək, daha sonra isə nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüş keçirilib.

Görüşdə Azərbaycan ilə Özbəkistan arasında hərbi, hərbi-texniki, hərbi təhsil sahələrində əməkdaşlığın inkişaf perspektivləri, hər iki ölkənin mütəxəssislərindən ibarət heyətin mütəmadi olaraq qarşılıqlı səfərlərinin təşkili və maraq doğuran bir sıra digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

Sonra poliqonun fəaliyyəti, maddi və tədris bazası ilə tanışlıq olub. Burada qonaqlara hərbi qulluqçuların nümunəvi məşğələləri nümayiş etdirilib.



Daha sonra qarşılıqlı hədiyyələr təqdim edilib və birgə xatirə şəkli çəkdirilib.

Yekunda "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Özbəkistan Respublikası Müdafiə Nazirliyi arasında 2024-cü il üçün ikitərəfli əməkdaşlıq Planı" imzalanıb.

# "Müdrik lider, böyük strateq, qalib sərkərdə"

Xalqımızın yeni əsrdə yeni lideri İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsindən 20 il ötür. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev Azərbaycan vətəndaşlarına tarixi müraciətində əsasını qoyduğu siyasəti davam etdirə biləcək liderin dəqiq ünvanını göstərmişdi: "... Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".



Azərbaycan Hərb Tarixi Muzeyində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ilk dəfə prezident seçilməsinin 20-ci ildönümünə həsr olunmuş dəyirmi masa keçirildi.

Tədbirdə Müdafiə Nazirliyinin idarə və müəssisələrinin, Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunun və ictimaiyyətin nümayəndələri, Vətən müharibəsi iştirakçıları, kütləvi informasiya vasitələrinin əməkdaşları iştirak etdilər.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Vətənimizin azadlığı, müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Tədbiri Hərb Tarixi Muzeyinin rəisi ehtiyatda olan polkovnik Əzizağa Qənizadə açdı. "Prezident İlham Əliyevin 20 ili: Yüksəliş və Zəfər" adlı məruzə ilə çıxış edərək bildirdi ki, 2003-2023-cü illər ölkəmizin tarixinə yüksəliş dövrü kimi daxil olub. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 20 illik fəaliyyəti dövründə xalqa verdiyi vədləri bütünlüklə yerinə yetirib. Bu müddət ərzində ölkəmizin bütün sahələrində sürətli inkişafına nail olub, ordumuz daha da formalaşıb, ölkəmizin beynəlxalq arenadakı mövqeləri möhkəmlənib.

Ən əsası isə Ulu Öndərin torpaqlarımızın azad olunması ilə bağlı müqəddəs arzusu həyata keçirilib və Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın ərazi bütövlüyü bərpa edilib".

Muzeyin rəisi onu da vurğuladı ki, bu gün Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan iqtisadiyyatı uğurla inkişaf edir, Qarabağda quruculuq uğurla davam edir və sosial proqramlar həyata keçirilir. Bunlar onu deməyə əsas verir ki, Qarabağdan olan soydaşlarımız tezliklə evlərinə əbədi olaraq qayıdacaqlar".

Tədbirdə çıxış edən tarix üzrə fəlsəfə doktorları Hacı Həsənov, Mübariz Ağalarov, Vahid İsmayılov, müharibə veteranı Bayram Muxtarov dövlət başçısının Azərbaycanın iqtisadi və hərbi qüdrətinin, beynəlxalq nüfuzunun gücləndirilməsində böyük inam və qətiyyətlə çalışdığından, üçrəngli bayrağımızın 30 ildən sonra Qarabağda, Şərqi Zəngəzurda yenidən dalğalanmasına nail olduğundan danışdılar.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin dövlətçilik fəaliyyətinin 20 ilindən bəhs edən sənədli filmin nümayişindən sonra Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistləri vətənpərvərliyi tərənnüm edən musiqilər ifa etdilər.

**Kapitan**
**Günay TAĞIYEVA**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan-Türkiyə birgə taktiki təliminə hazırlıq məşqləri keçirilir



Azərbaycanda keçiriləcək Türkiyə Respublikasının yaradılmasının 100-cü ildönümünə həsr olunmuş"Mustafa Kamal Atatürk-2023" birgə taktiki təlimin müxtəlif epizodlar üzrə fəaliyyətləri məşq etdirilir.

Plana uyğun olaraq, daimi dislokasiya məntəqələrindən cəmləşmə rayonlarına çıxarılan Quru Qoşunlarının, həmçinin Raket və Artilleriya Qoşunlarının bölmələri atəş mövqelərini tutaraq qurğuların döyüş tətbiqinə hazırlanması üzrə tapşırıqları yerinə yetiriblər.

Əsas diqqətin qoşunların qarşılıqlı əlaqədə fəaliyyətləri zamanı döyüş uzlaşmasının təmin edilməsi, idarəetmənin təkmilləşdirilməsi, təcrübə mübadiləsi və şəxsi heyətin peşəkarlığının artırılmasına yönəldilib. Azərbaycan-Türkiyə birgə taktiki təlimi cari ilin 23-25 oktyabr tarixlərində Bakı şəhəri, Naxçıvan Muxtar Respublikası və azad edilmiş ərazilərimiz də daxil olmaqla, bir neçə istiqamətdə keçiriləcək.

Plana uyğun olaraq, döyüş təyyarələri ilə havaya qalxma və yerə enmə, kiçik və orta hündürlüklərdə çətin pilotaj manevrləri, şərti düşmənə məxsus yerüstü hədəflərin koordinatlarının təyin edilməsi, eləcə də hava kəşfiyyatının aparılması və digər tapşırıqlar üzrə fəaliyyətləri məşq etdirilib. Təlim məşqləri zamanı qarşıya qoyulan bütün tapşırıqlar hərbi pilotlar tərəfindən yüksək dəqiqliklə yerinə yetirilib.

Əlahiddə Ümumqoşun Ordunun (ƏÜO) təlimə cəlb olunan bölmələri daimi dislokasiya məntəqələrini tərk edərək ərazidə yerdəyişmə etməklə texnikanın döyüş tətbiqinə hazırlanması üzrə normativləri icra ediblər.

Komandolar gecə məhdudgörmə şəraitində taktiki yerdəyişmə icra edərək basqınla şərti düşmənin diversiya qrupunu yerləşmə məntəqəsində zərərsizləşdiriblər.

Təlimin əsas məqsədi hərbi qulluqçuların məhdudgörmə şəraitində taktiki vərdişlərinin təkmilləşdirilməsi və komando bölmələrinin döyüş qabiliyyətinin daha da yüksəldilməsidir. Məşqlər zamanı yüksək peşəkarlıq nümayiş etdirən komandolar bütün tapşırıqları müvəffəqiyyətlə yerinə yetiriblər.

"Mustafa Kamal Atatürk-2023" təlimində iştirak etmək üçün Türkiyə Hərbi Hava Qüvvələrinin (HHQ) F-16 təyyarələri oktyabrın 20-də ölkəmizə gəlib.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidmətinin**
**materialları əsasında**



# "Azərbaycanın dövlət müstəqilliyi əbədidir, sarsılmazdır" adlı ədəbi-bədii gecə keçirilib





*Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzinin klubunda 18 Oktyabr - Müstəqilliyin Bərpası Günü münasibətilə "Azərbaycanın dövlət müstəqilliyi əbədidir, sarsılmazdır" adlı ədəbi-bədii gecə keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə Ulu Öndər Heydər Əliyevin və respublikamızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Şəxsi Heyət Baş İdarəsinin rəisi vəzifəsini icra edən general-mayor Elçin Xəlilov tədbir



iştirakçılarını salamlayaraq, Müdafiə Nazirliyi rəhbərliyinin təbrikini şəxsi heyətə çatdırıb.

General-mayor E.Xəlilov qeyd edib ki, xalqımızın tarixində əlamətdar və tarixi günlər çoxdur. Onlardan biri də 18 Oktyabr günüdür. Otuz iki il öncə Azərbaycan Respublikası Ali Soveti dövlət müstəqilliyi haqqında konstitusiya aktını qəbul etdi. Oktyabrın 8-də isə növbədənkənar sessiya məsələni 4 gün müzakirə etsə də, qərar verməyi bir həftə sonraya saxladı. Nəhayət, 1991-ci il oktyabrın 18-də Ali Sovetin sessiyasında bu sənəd qəbul olundu.

Nəzərə çatdırılıb ki, 2021-ci il oktyabrın 15-də Milli Məclis Prezident İlham Əliyevin təşəbbüsü ilə "Müstəqillik Günü haqqında" yeni qanunu təsdiqlədi. Bu qanuna əsasən mayın 28-i "Müstəqillik Günü", oktyabrın 18-i isə "Müstəqilliyin Bərpası Günü" elan edildi.



General-mayor E.Xəlilov böyük qürur hissi ilə vurğulayıb ki, xalqımız və Azərbaycan Ordusunun şəxsi heyəti "Müstəqilliyin Bərpası Günü"nü böyük qələbə əhval-ruhiyyəsi ilə qeyd edir. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında respublikamızın ərazi bütövlüyü tamamilə bərpa edilib və dövlət bayrağımız artıq Xankəndidə, Xocalıda, Ağdərədə, Əsgəran qalasında, Sərsəngdə də dalğalanmaqdadır. Müzəffər Ali Baş Komandanın Xankəndidən birbaşa xalqa müraciəti hər bir Vətən əsgərinin də döyüş ruhunu, mənəvi-psixoloji hazırlığını, vətənpərvərlik hissini daha da yüksəldib.

Layihə müəllifi, Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani Azərbaycanın dövlət müstəqilliyinin qorunmasında Ulu Öndər Heydər Əliyevin müstəsna xidmətlərindən danışıb, dahi liderin özü qədər inandığı və gələcəyinə böyük ümidlər bəslədiyi cənab İlham Əliyevin 20 illik prezidentlik fəaliyyətində ata vəsiyyətini uğurla yerinə yetirdiyindən böyük iftixar hissi ilə söhbət açıb.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin ifasında "Böyük Zəfər marşı" (sözləri A.Qurbaninin, musiqisi İ.Novruzovundur) tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

Ədəbi-bədii gecədə Azərbaycana, Müzəffər Ali Baş Komandana, qalib Azərbaycan Ordusuna həsr olunmuş hərbi marşlar, vətənpərvərlik mahnıları, xoreoqrafik kompozisiyalar təqdim edilib.

"Azərbaycanın dövlət müstəqilliyi əbədidir, sarsılmazdır" adlı ədəbi-bədii gecə "Müzəffər ordumuz" vətənpərvərlik mahnısı ilə başa çatıb.



## Hərbi Hava Qüvvələrinin helikopter bölmələri ilə təlim keçirilib



Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi hazırlıq planına əsasən, Hərbi Hava Qüvvələrinin (HHQ) helikopter bölmələri ilə təlim keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, bazalanma aerodromlarından uçuşlar edən helikopterlər təlimin planına uyğun olaraq havaya qalxma və yerə enmə, şərti düşmənə məxsus yerüstü hədəflərin koordinatlarının təyin edilməsi, hava kəşfiyyatının aparılması və digər fəaliyyətlər üzrə qarşıya qoyulan tapşırıqları yerinə yetiriblər.

Helikopter bölmələrinin döyüş və praktiki vərdişlərinin təkmilləşdirilməsi məqsədi ilə keçirilən təlimdə hərbi pilotlar yüksək peşəkarlıq nümayiş etdiriblər.

## Qarabağ bölgəsində xeyli sayda mina və öldəqayırma partlayıcı qurğular aşkar edilib



Azərbaycanın Qarabağ bölgəsində əraziyə baxış zamanı içərisində xeyli sayda müxtəlif təyinatlı mina və kustar üsullarla hazırlanmış əldəqayırma partlayıcı qurğularla dolu anbarlar ordumuzun mühəndis-istehkam bölmələri tərəfindən aşkar edilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, aşkar edilmiş anbarlarda mövcud minaların bir qisminin 2021-ci ildə Ermənistanda istehsal olunduğu, əldəqayırma partlayıcı qurğuların isə artilleriya mərmilərindən kustar üsullarla hazırlandığı müəyyən edilib.

Xatırladaq ki, lokal xarakterli antiterror tədbirlərindən öncə Ermənistandan Qarabağ bölgəsinə dəfələrlə qanunsuz hərbi daşımaların həyata keçirilməsi barədə Müdafiə Nazirliyi tərəfindən rəsmi məlumatlar verilib.





## Hərbi qulluqçularımız "Erciyes-2023" təlimində iştirak edirlər



Azərbaycan Ordusunun hərbi qulluqçuları Türkiyə Respublikasının Kayseri şəhərində keçirilən "Erciyes-2023" təlimində iştirak edirlər.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Azərbaycan Hərbi Dəniz Qüvvələrinin xüsusi təyinatlılarının cəlb olunduğu təlimdə qarşıya qoyulan tapşırıqlar uğurla yerinə yetirilir.

"Erciyes-2023" təlimində əsas diqqət qarşılıqlı əlaqədə fəaliyyətlər zamanı döyüş uzlaşmasının təmin edilməsi, təcrübə mübadiləsi və peşəkarlığın artırılması, eləcə də hərbi qulluqçuların bilik və bacarıqlarının daha da təkmilləşdirilməsinə yönəldilib.

# Milli Müdafiə Universitetinin nümayəndə heyəti Dövlət İdarəçilik Akademiyasında olub



*2023-cü ilin fəaliyyət planına uyğun olaraq, gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunması və onlara dövlətçiliyə sədaqət hisslərinin təlqin edilməsi məqsədilə keçirilən görüşlər çərçivəsində Milli Müdafiə Universitetinin (MMU) nümayəndə heyəti Azərbaycan Respublikasının Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyasında olub.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, eləcə də Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və torpaqlarımızın azadlığı uğrunda canından keçən Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Görüşdə Dövlət İdarəçilik Akademiyasının professor-müəllim heyəti və tələbələri iştirak ediblər.

Tələbələrlə gənc nəslin milli-mənəvi dəyərlərə sadiqlik, dövlətçilik və vətənpərvərlik ruhunda tərbiyəsi istiqamətində maarifləndirici söhbətlər aparılıb, onları maraqlandıran suallar cavablandırılıb.

Sonda elm və təhsil sahəsində əməkdaşlıq haqqında bir sıra məsələlər müzakirə edilib.





# Özbəkistan Müdafiə Nazirliyinin nümayəndə heyəti ölkəmizdə səfərdədir

Azərbaycan və Özbəkistan Müdafiə nazirlikləri arasında imzalanan 2023-cü il üçün ikitərəfli əməkdaşlıq planına əsasən, bu ölkənin Müdafiə Nazirliyinin nümayəndə heyəti Azərbaycana səfər edib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, səfər çərçivəsində qonaqlar əvvəlcə Şəhidlər xiyabanında ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş vətəndaşlarımızın məzarlarını ziyarət edərək gül dəstələri düzüblər.

Sonra qonaqlar Azərbaycan Ordusunun Döyüşü İdarəetmə Mərkəzi və Hərbi Hava Qüvvələrinin Mərkəzi Komanda Məntəqəsini ziyarət edərək burada görülən işlərlə tanış olublar.

Qeyd edək ki, özbəkistanlı hərbi nümayəndələrin səfərinin başlıca məqsədi ordu quruculuğu sahəsində qarşılıqlı təcrübə mübadiləsinin aparılmasıdır.

Özbəkistan Respublikası Müdafiə Nazirliyinin nümayəndə heyətinin ölkəmizdə səfəri davam edir.



# Vətən müharibəsi şəhidlərinin xatirəsi anıldı







Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində Vətən müharibəsi şəhidləri müddətdən artıq həqiqi hərbi xidmət qulluqçuları əsgərlər Səbuhi Vahid oğlu Orucov və Nazim Nadir oğlu Kirxlarovun xatirələrinə həsr olunmuş anım tədbiri keçirildi.

Tədbirdə şəhidlərin doğmaları, döyüş yoldaşları, dostları, müharibə veteranları, Suraxanı rayon İcra Hakimiyyətinin və ictimaiyyətin nümayəndələri iştirak etdilər.

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və respublikamızın suverenliyi, müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Tədbir iştirakçılarına Azərbaycan Ordusunun şəhid hərbi qulluqçuları Səbuhi Orucov və Nazim Kirxlarovun şərəfli döyüş yolundan bəhs edən videoçarx nümayiş olundu.

Şəhidlərin valideynləri Narınc Orucova və Sultan Kirxlarova çıxış edərək övladlarının Vətənə bağlı olmalarından, ailədə vətənpərvər bir övlad kimi yetişmələrindən, eldə, obada, xidmətdə qazandıqları uğurlarından danışdılar. Bildirdilər ki, Vətən yolunda canından keçən oğulları xatirəsi xalqımızın yaddaşında əbədi yaşayacaq. "Onlar torpaqlarımızın azadlığı, bütövlüyü naminə şəhidlik zirvəsinə ucalan Azərbaycanın qorxmaz, igid oğullarıdır. Xalqımıza qələbə sevincini yaşadan qəhrəman oğullardır. İndi Səbuhi, Nazim tək bizim yox, bütün Azərbaycan xalqının övladlarıdır. Biz onlarla qürur duyuruq. Allah bütün şəhid analarına səbir versin".

Suraxanı rayon İcra Hakimiyyətinin nümayəndəsi Aslan Dəniz çıxışında şəhid ailələrinə və yaralılara dövlət qayğısından geniş bəhs etdi. Onların sosial şəraitinin yaxşılaşdırılması istiqamətində görülən tədbirlərdən danışdı.

Şəhid qardaşı Fuad Orucov Səbuhi ilə bağlı xatirələrindən söhbət açdı. Acılı-şirinli günləri, onunla keçirdiyi xoş anları kövrəkliklə yada saldı.

Tədbirdə çıxış edən şəhid valideynləri onlara göstərilən diqqət və qayğıya, övladlarının adının daima uca tutulmasına görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə dərin minnətdarlıqlarını bildirdilər.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə Azərbaycan Ordusunun şəhid hərbi qulluqçusu Səbuhi Orucov "Azərbaycan Bayrağı", 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordenləri, "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə" və "Vətən uğrunda" (ölümündən sonra) medallarına layiq görülüb.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə hərbi qulluqçu Nazim Kirxlarov 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə" və "Vətən uğrunda" (ölümündən sonra) medalları ilə təltif olunub.

Azərbaycanımızın torpağı uludur. Bu ulu torpaq uğrunda canından keçən Səbuhi və Nazim kimi oğulların adları nəsildən-nəslə keçərək tarixləşəcək.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunda silah və texnika payız-qış mövsümündə istismar rejiminə keçirilir



*Azərbaycan Ordusunda 2023-cü ilin hazırlıq planına uyğun olaraq, silah, döyüş və xüsusi texnikanın istismarının payız-qış mövsümünə keçirilməsi üzrə kompleks tədbirlər keçirilir.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, bütün hərbi hissələr silah və texnikanın payız-qış mövsümündə fasiləsiz və dayanıqlı istismarını təmin etmək üçün mərkəzləşdirilmiş qaydada yanacaq-sürtgü materialları, həmçinin digər zəruri ehtiyat hissələri və avadanlıqlarla təmin edilir.

Keçirilən kompleks tədbirlər çərçivəsində texnikanın yanacaq-sürtgü materialları mövsümi tələblərə uyğun olaraq dəyişdirilir, o cümlədən elektrik və hidravlik sistemlərinin istismara yararlılığı yoxlanılır.

* * *

Əlahiddə Ümumqoşun Ordunun birləşmə, hissə və bölmələrində silah və texnikaların saz vəziyyətdə saxlanması, təlimata uyğun istifadə və istismar olunması, həmçinin mövsümə uyğun düzgün texniki qulluğun göstərilməsi ilə bağlı məşğələlər keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, məşğələlər zamanı keçirilən dərslərdə bölmələrin döyüş gücünü artırmaq məqsədilə hər bir si-



lah və hərbi texnikadan düzgün istismar qaydalarına əməl olunmasının vacibliyi diqqətə çatdırılıb və mövsümi tələblərə uyğun olaraq silah və texnikalara düzgün texniki qulluğun göstərilməsi, həmçinin hissə və mexanizmlərin dəyişdirilməsi praktiki olaraq şəxsi heyətə göstərilib.

Məşğələlərdən sonra bölmələrdə avtomobil və zirehli texnikalara, aviasiya və hava hücumundan müdafiə vasitələrinə, rabitə avadanlıqlarına, raket-artilleriya silahlarına, atıcı silahlara və döyüş sursatlarına planlı şəkildə mövsümi qulluğun göstərilməsinə başlanılıb.

Kompleks tədbirlər çərçivəsində texnikaların yanacaq-sürtgü materialları və filtrləri mövsümi tələblərə uyğun olaraq dəyişdirilir, elektrik və hidravlik sistemləri, hissə və mexanizmləri planlı şəkildə yoxlanılır.

Zirehli texnikaların döyüş və



güc bölmələrinə xüsusi qulluq göstərilir, bütün hərəkət hissələri yağlanır, tırtıllar tarımlanır, mühərriklərin yağı dəyişdirilir.

Qeyd edək ki, texnikaların payız-qış mövsümündə istismarına keçidin keyfiyyətli keçirilməsi soyuq hava və yüksək dağlıq ərazilərdə, sutkanın hər vaxtında bölmələrin yüksək döyüş qabiliyyətində saxlanılmasına, həmçinin şəxsi heyətin bu mövsümdə fasiləsiz təminatına imkan yaradacaq.

* * *

Silah və texnikaya qulluq göstərmək sabahkı uğurları təmin edən amillərdəndir. Buna görə də texnikalar daim işlək vəziyyətdə saxlanılır. Bu günlərdə silah və texnikaların mövsümi istismar rejiminə keçirilməsi üçün hərbi hissə və birləşmələrdə tələb olunan zəruri tədbirlər həyata keçirilir. İcra olunan tədbirlərin uğurla başa çatması üçün bütün qüvvə və vasitələr səfərbər olunur. Hərbi qulluqçular idarə etdikləri texnikaları, döyüşlərdə düşmən hədəflərini məhv etdikləri silahları silib təmizləyir, yağlayırlar.

Bu gün silah və texnikaların mövsümi istismar rejiminə keçirilməsi üçün hərbi hissə və birləşmələrdə mühüm fəaliyyətlər planı icra olunur. Hərbi qulluqçular bu tədbirlər çərçivəsində avtomobillərə texniki xidmət göstərirlər. Silah və texnikalar payız-qış mövsümünə hazırlanır, təkrar-təkrar yoxlanılır və aşkarlanan nasazlıqlar qısa müddət ərzində aradan qaldırılır.

Şəxsi heyətinin Vətən müharibəsində, həmçinin başqa əməliyyat və tədbirlərdə böyük uğurlar qazandığı "N" hərbi hissəsində bunun canlı şahidi olduq. Hərbi hissənin parkında böyük canlanma var idi. Hərbi qulluqçular yorulmaq bilmədən silah və texnikanın payız-qış mövsümi istismarı rejiminə keçirilməsi tapşırıqlarını yerinə yetirirdilər. Bu zəruri işlərin təşkili və həyata keçirilməsi ilə yaxından tanış olduq.

Vətən müharibəsinin odalovundan keçmiş, göstərdiyi igidliyə görə müxtəlif orden və medallara layiq görülmüş mayor Rauf Zeynalov suallarımıza ətraflı cavab verərək dedi:

- Silah və texnikanın payız-qış mövsümünə keçirilməsi olduqca vacib prosesdir. Hər istismar dövrünün öz tələbləri var. Bu tələblərə böyük diqqət və məsuliyyətlə yanaşırıq. Artıq payız yavaş-yavaş özünü göstərir. Günlər, həftələr arxada qaldıqca havalar soyuyur. Buna görə də bu vacib işi tələb olunan vaxt çərçivəsindən də tez həyata keçirməyə çalışırıq. Məqsədimiz silah və texnikaların payız-qış mövsümi istismarı rejiminə keçirilməsi işini həm keyfiyyətlə, həm də qısa müddət ərzində yekunlaşdırmaqdır. Bilirsinizmi, işlərə başlamazdan bir neçə gün əvvəl şəxsi heyətin bu istiqamətdə vərdişlərinin daha da artırılması və təkmilləşdirilməsi məqsədilə şəxsi heyətə mövsümi texniki xidmətin təşkili və keçirilməsi üzrə nümunəvi-praktiki məşğələlər keçirildi. Məşğələ prosesində görüləcək işlər iştirakçılara nəzəri cəhətdən izah olundu, praktiki şəkildə göstərildi. Hərbi qulluqçular keçirilən məşğələ prosesində qarşılarında dayanan vəzifələri tam olaraq mənimsədilər. Ona görə də bu gün onlar silah və texnikaların payız-qış mövsümi istismarı şəraitinə keçirilməsi tapşırıqlarını



bacarıqla yerinə yetirirlər. Komandanlıq tərəfindən təsdiq olunmuş müvafiq təlimata uyğun olaraq, texnikaların akkumlyator batareyalarına, güc aqreqatlarına və ötürücülərinə xidmət göstərilir. Yağlama sistemindəki yağ nasosundakı süzgəclər təmizlənir, mühərrikdəki yağlar dəyişdirilir. Yanacaq baklarının, borularının, filtrlərin, korbüratorların yuyulub təmizlənməsi və bərkidilməsi işləri aparılır. Soyutma sisteminin, hava klapanlarının, sıxılmış hava ilə işəsalma sisteminin sazlığı yoxlanılır. Bir sözlə, gördüyünüz kimi, mövsümlə əlaqədar həm silahlar, həm də texnikalar üzərində görəcəyimiz işlər çoxdu. Qarşıda dayanan bütün bu tapşırıqları yerinə yetirmək üçün kifayət qədər vaxt ayrılıb. Biz çalışacağıq ki, üzərimizə düşən bu vəzifələri yüksək keyfiyyətlə görək. Silah və texnikalarımız istənilən mövsümdə istismara hazır olsun.

Parkda silah və texnikaları payız-qış mövsümünün istismarına hazırlayan zabit və əsgərlərin yanına gəldik. Onlar



üzərlərinə düşən tapşırıqları yerinə yetirmək üçün çalışırdılar. Baş leytenant Sahil Əliyev dedi ki, biz bu silah və texnikalarla düşmən üzərinə getmişik. Böyük uğurlar qazanaraq Qarabağı və onun ətrafındakı rayonlarımızı erməni qəsbkarlarının işğalından azad etmişik. Hərbi hissəmizin şəxsi heyəti döyüşlərdə gələcək nəsillərə nümunə olacaq qəhrəmanlıq göstərdi. Döyüşlərdə bizə uğur qazandıran silahlara, avtomobillərə texniki xidmət göstəririk. Bu, olduqca mühüm bir tağşırıqdır. Artıq ötən müddət ərzində zəruri işlər görülüb. Xeyli sayda silah və texnikalara xidmət göstərilib. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Ülvi Qoncayev, əsgərlər Mədət Ağayev, Rəvan İbrahimov, Elman Əsgərov və başqaları üzərlərinə düşən işlərin öhdəsindən bacarıqla gəlirlər. Komandanlıq da əsgərlərin gördüyü işlərdən razılıq edir. Bütün bunlar onu deməyə əsas verir ki, üzərimizə düşən tapşırıqlara vaxtında və yüksək keyfiyyətlə əməl edəcəyik.

- Budur, əsgərlərimiz artilleriya qurğusu üzərində son tamamlanma işləri aparırlar, - deyə baş leytenant Süleyman Ağayev söhbətimizə qoşuldu. - Şəxsi heyət ilk dəfə deyil ki, bu işləri görür. Hər il hərbi qulluqçularımız silah və texnikanın payız-qış mövsümi istismarına keçirilməsi tapşırığını uğurla yerinə yetirirlər. Buna görə də kifayət qədər peşəkar və təcrübəlidirlər. Əminliklə deyə bilərəm ki, həmişəki kimi, bu mövsümdə də üzərimizə düşən tapşırıqları bacarıqla yerinə yetirəcəyik.

Silahına, texnikasına bu cür həvəslə, məsuliyyətlə xidmət göstərən hərbi qulluqçularımız hər cür xoş sözlərə layiqdirlər. Əminik ki, onlar gələcək xidmətlərində daha da böyük uğurlar qazanacaqlar.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**
**fotolar**
**çavuş**
**N.PƏNAHOVUNDUR**

# Döyüşçülərin dedikləri də müharibə tarixidir

***44 günlük Vətən müharibəsində məğlubiyyətə düçar olan Ermənistan Azərbaycan torpaqlarından böyük məğlubiyyətlə geri çəkildi. Xankəndi, Ağdərə, Xocalı, Əsgəran, Xocavənd şəhərlərində isə silahlı dəstələri çıxaracaqlarını bəyan etdilər. Ermənistan 3 il əvvəl kapitulyasiya aktını imzalasa da, əməl etmədi. Vaxt keçdikcə ermənilər ərazilərimizdə yeni istehkamlar tikir, gizlin yolla silah-sursat daşıyır, daha da möhkəmlənməyə çalışırdılar. Onların bu davranışı Azərbaycanı yeni hərbi əməliyyat keçirməyə məcbur etdi.***

***Ordumuzun həyata keçirdiyi uğurlu döyüş əməliyyatlarının iştirakçısı olmuş əsgərlərlə görüşümüz bizə xoş ovqat bəxş etdi. Döyüşçülərlə görüşüb onların təəssüratlarını öyrəndik.***





**Gizir İlqar Məmmədov:**

- Zərdab rayonunun Körpükənd kəndində anadan olmuşam. 2016-cı ildən xidmətdəyəm. İkinci Qarabağ müharibəsi iştirakçısıyam. Füzulidən-Şuşaya qədər döyüşlərdə iştirak etmişəm. 4 noyabr 2020-ci ildə Şuşada yaralanmışam. Hərbi hospitalda müalicə olunub tam sağalandan sonra xidmət yerimə qayıtmışam. Döyüşlərdə iştirakıma görə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunmuşam. Hər zaman Vətən torpaqlarını azad görmək istəmişəm. Bu məqsədlə keçirilən sonuncu əməliyyatlarda da iştirak etmişəm. 44 günlük Vətən müharibəsində və qələbə qazandığımız digər bütün əməliyyatlarda rəşadətli ordumuzun yenilməzliyini, yüksək döyüş hazırlığını zabit, gizir və əsgərlərin sarsılmaz döyüş ruhunu bütün



dünya gördü. Sübut etdik ki, ərazi bütövlüyümüz və suverenliyimiz uğrunda istənilən döyüş əməliyyatlarını müvəffəqiyyətlə yerinə yetirməyə hər an hazır və qadirik.

**Gizir Kamil Salmanov:**

- Salyan rayonunda doğulub boya-başa çatmışam. Uzun illərdir ordu sıralarında xidmət edirəm. Hərbi xidmətə başladığım gündən ermənilərin işğal etdikləri torpaqlarımızı azad etmək üçün döyüşə atılmağa hazır idim. Bu illər ərzində çox arzulayırdım ki, sülh danışıqları yolu ilə münaqişəni həll etmək istəməyən düşməni döyüş meydanında məğlub edək. 27 sentyabr 2020-ci ildə ermənilərin genişmiqyaslı təxribatları nəticəsində başlayan Vətən müharibəsində silahlar dilə gəldi. Əks-hücum əməliyyatlarının ilk günündə cəbhənin Füzuli istiqamətində döyüşə başladıq. Erməni silahlı dəstələrini məhv etdik. Doğma torpaqlarımızı azad edə-edə Şuşa şəhərinə qədər şərəfli döyüş yolu keçdik. Döyüşlərdəki iştirakıma görə "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" və "Laçının azad olunmasına gö-



rə" medalları ilə təltif olundum. Vətən qarşısındakı xidmətlərimə görə qürur duyuram. Bu qürur peşəmə olan sevgimi və bağlılığımı daha da artırır. Tabeliyimdə olan şəxsi heyətin bacarıqlı, döyüş qabiliyyətli əsgərlər kimi formalaşması üçün bütün bilik və təcrübəmi səfərbər edirəm. Əsgərlərin də hər biri vəzifələrinə məsuliyyətlə yanaşır. Vətəni müdafiə etməyin müqəddəsliyini yaxşı dərk edirlər. Bu müqəddəslikdən ilhamlanaraq ərazi bütövlüyümüzün müdafiəsində inamla dayanırlar.

**Kiçik çavuş Kamran Məmmədli:**

- Uşaq yaşlarımdan hərbçi olmaq istəyirdim. Müddətli həqiqi hərbi xidmətim cəbhə bölgəsində keçdi. Doğmalarımın yanına qayıdandan sonra müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi ordu sıralarına qayıtmaq istəyimi valideynlərimə bildirdim. Onların xeyir-duası ilə yenidən hərbi xidmətə başladım. Manqa komandiri kimi tabeliyimdə olan əsgərlərin təlim-tərbiyəsi ilə ciddi məşğul olurdum. Təlim-məşqlərdə döyüş təcrübəmizi artırırdıq. Həmişə əsgərlərə deyirdim ki, istənilən



an müharibə başlaya bilər. Çünki torpaqlarımız erməni silahlı birləşmələri tərəfindən işğal olunub. 44 günlük Vətən müharibəsində mən də iştirak etdim və 6 oktyabr 2020-ci ildə Füzuli rayonunun azadlığı uğrunda gedən döyüşlərdə yaralandım. Hərbi həkimlərin ciddi səyləri nəticəsində yaralarım tam sağaldı və yenidən döyüş meydanına qayıtdım. Ordumuzun qələbəsi ilə başa çatan digər əməliyyatların da iştirakçısı olmuşam. Torpaqlarımızın azadlığı uğrunda döyüşlərdə iştirak etdiyim üçün qürurluyam.

**Kiçik çavuş Azər İsgəndərov:**

- Gözümü dünyaya açandan ermənilərin doğma torpaqlarımızı işğal etdiyini, bir milyondan artıq soydaşımızın doğma ev-eşiyindən qaçqın düşdüyünü eşitmişəm. Bunlar düşmənə qarşı nifrət hissimi daha da artırıb. Bir neçə ildir ki, ordu sıralarında xidmət edirəm. Başlıca məqsəd və məramım düşmən işğalında qalan torpaqlarımızın azadlığı uğrunda döyüşmək olub. İkinci Qarabağ müharibəsində iştirak etmək üçün könüllü müraciət etdim. Lakin müsbət ca-



vab almadım. O zaman müharibə cəmi 44 gün çəkdi. Ordumuz qısa müddətdə ermənilərin 30 ilə yaxın işğalda saxladıqları torpaqlarımızı azad etdi. Üç il vaxt keçməsinə baxmayaraq düşmən Xankəndidən, Ağdərədən və başqa şəhər və kəndlərdən qanunsuz silahlı dəstələrini çıxarmaq əvəzinə, daha da möhkəmlənmək istəyirdi. Ordumuzun keçirdiyi sonuncu əməliyyat cəmi bir gün davam etdi. Biz də həmin tədbirlərdə iştirak etdik. Ağdam-Ağdərə istiqamətində düşmənin qanunsuz silahlı dəstələrinin tərk-silah edilməsindəki fəaliyyətimiz uğurlu keçdi.

**Əsgər Coşqun Canımov:**

- Zaqatala rayonunun Yuxarı Tala kəndində anadan olmuşam. Çalışdığım bütün sahələrdə Vətənə ləyaqətlə xidmət etmək başlıca məqsədim olub. Hərbi xidmətdən əvvəl "Qarabağ" futbol klubunun ehtiyat oyunçusu olmuşam. Milli yığmamızın tərkibində bir neçə oyunda meydana çıxmışam. Bacarıqlı futbolçu olmağımla yanaşı, Vətən qarşısın-



da əsgəri borcumu şərəflə yerinə yetirmək arzusunda idim. Xidmətimin ilk günlərindən komandirlərin verdiyi əmr və tapşırıqları vaxtında yerinə yetirmişəm. Qarabağda düşmənin atəşkəsi pozduğunu eşidəndə ermənilərə qarşı qəzəbim artırdı. Sentyabrın 19-da əməliyyatlar başlayanda hərbi hissəmiz də döyüşlərə cəlb olunmuşdu. Sırxavənd kəndi istiqamətində qarşıya qoyulan tapşırıqları uğurla yerinə yetirdik. Bundan sonra da Vətənimizin müdafiəsi naminə hər bir döyüş tapşırığını icra etməyə hazıram və bundan qürur duyuram.

**Əsgər Elcan Nəbiyev:**

- Hələ kiçik yaşlarımdan rayonumuzun Ermənistanla sərhəd kəndlərində ermənilərin təxribatlar törətdiklərini tez-tez eşidirdim. Arzu edirdim ki, tezliklə düşmənin bu hücumlarının qarşısı birdəfəlik alınsın. Xidmətdə olduğum müddət ərzində hərbi biliklərə, döyüş vərdişlərinə mükəmməl yiyələnmişəm. Ordumuzun keçirdiyi son əməliyyatlarında iştirak etmişəm. Azərbaycan qüdrətli dövlətdir və güclü ordumuz var. Azərbaycan Ordusunun əsgəri olmağımla qürur duyuram. Vətən anadır. Biz Vətənimizi göz bəbəyi kimi qorumalıyıq. Doğma yurdumuza göz dikən düşməni hər an məhv edəcəyik. Necə ki, biz bunu sonuncu əməliyyatlarda etdik. Bu, düşmənə dərs olmalıdı.

**Əsgər Rəsul İbrahimov:**

- Bu gün bütün dünya yaxşı bilir ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanının və Azərbaycan xalqının ordusuna inamı yüksəkdir, çünki qalib Azərbaycan əsgəri hər zaman ona olan etimadı və inamı layiqincə doğruldub, Böyük Qələbələr qazanıb. Qalib ordunun mundirini daşıdığım üçün xoşbəxtəmsə, xidmətim vaxtı qarşıya qoyulan müqəddəs missiyanın iştirakçısı olduğum üçün ikiqat xoşbəxtəm. Düşmənin son zamanlar əl atdığı təxribatların sayı və miqyası artmaqda idi. Ordumuzun törədilən təxribatlara cavabı şiddətli və sarsıdıcı oldu. Qarşıya qoyulan tapşırıq qısa vaxtda öz həllini tapdı. Bölmələrimizin adekvat cavab tədbirləri nəticəsində düşmən çoxlu sayda itki verdi. Əməliyyat zamanı düşmənə atılan mərmilər hərbi təyinatlı obyektlərini, texnikalarını darmadağın etməklə yanaşı, onların revanşist hisslərini, məkrli niyyətlərini də yerləbir etdi. Bizim döyüş ruhumuz və arsenalımızda olan müasir silahlar qarşısında düşmən çıxış yolunu ağ bayraq qaldırmaqda gördü. Haqq mübarizəmizdə canından keçən şəhidlərimizin ruhları qarşısında baş əyirik. Məhz qəhrəman oğullarımız "Vətən sənə canım fəda" deyərək bir daha tarix yazdılar. Onların ruhlarını daim ehtiramla yad edəcəyik. Çünki bu hər bir azərbaycanlının şərəf borcudur.

Döyüşçülərlə daha bir görüşün təəssüratlarından xoş ovqatla ayrılırıq. Fikirləşirik ki, onların dedikləri də müharibə tarixinin kiçik bir parçasıdır.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**
**fotolar**
**C.CƏFƏROVUNDUR**

# Müstəqilliyin Bərpası Günü münasibətilə Azərbaycan Ordusunda silsilə tədbirlər keçirilib

*18 Oktyabr - Müstəqilliyin Bərpası Günü münasibətilə Azərbaycan Ordusunun birlik, birləşmə və hərbi hissələrində, eləcə də xüsusi təyinatlı təhsil müəssisələrində silsilə tədbirlər keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, tədbirlərdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və müstəqilliyimiz, ərazi bütövlüyümüz uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.



Çıxış edənlər Ulu Öndər Heydər Əliyevin xalqımızın taleyində, müasir Azərbaycan dövlətinin qurulmasında və inkişafında müstəsna xidmətlərindən, Azərbaycan xalqının Ümummilli Liderinin Azərbaycana rəhbərliyi dövründə respublikamızın ictimai-siyasi, iqtisadi, sosial həyatında, eləcə də ordu quruculuğunda əldə olunan nailiyyətlərindən danışıblar. Onun müdrik siyasətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sayəsində ölkəmizin durmadan inkişaf etdiyi xüsusi vurğulanıb.

Silsilə tədbirlər zamanı plana uyğun olaraq, həmçinin müxtəlif tarixi muzeylər də ziyarət edilib.

* * *

18 Oktyabr - Müstəqilliyin Bərpası Günü münasibətilə müdafiə nazirinin təsdiq etdiyi tədbirlər planına əsasən, hərbi hissə və birləşmələrdə bayram ovqatlı tədbirlər keçirildi. Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin təbliğat-təşviqat qrupunun əməkdaşları da işğaldan azad edilmiş ərazilərdə dislokasiya olunan hərbi hissələrdə bu tarixi gün münasibətilə birgə tədbirlər təşkil etdi.

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev və Vətənimizin müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin Təbliğat-Təşviqat qrupunun əməkdaşı Nailə Qurbanova Azərbaycan xalqının zəngin dövlətçilik tarixindən, XX yüzillikdə xalqımızın yenidən müstəqilliyə qovuşmasından və Ulu Öndərin rəhbərliyi ilə yeni inkişaf mərhələsinə daxil olmasından, iqtisadi-siyasi, mədəni, elmi sahələrdə əsaslı dönüşün yaradılmasından danışdı. Qeyd etdi ki, Ulu Öndər Heydər Əliyevin xalqımızın təkidli tələbindən sonra hakimiyyətə qayıdışı Azərbaycanın tarixində yeni mərhələnin başlanğıcı oldu. Dahi şəxsiyyətin uzaqgörənliyi ilə həyata keçirilən genişmiqyaslı islahatlar ölkəmizin bütün sahələrində əsaslı dönüş yaratdı. Dünya dövlətləri ilə siyasi-iqtisadi əlaqələr quruldu, əməkdaşlıq genişləndirildi. Dövlətçiliyimizə qarşı mövcud böhranlı vəziyyətə son qoyuldu. Silahlı Qüvvələrimiz yenidən qurulmağa başladı, vahid komandanlıq, idarəetmə sistemi formalaşdı.



Azərbaycan dünya miqyasında yeni iqtisadi uğurlar qazandı. Əsrin müqaviləsi imzalandı. Beynəlxalq ictimaiyyət Azərbaycanda həyata keçirilən islahatları dəstəklədi. Ulu Öndər Azərbaycanın müstəqilliyini əbədi və dönməz etdi.

Ulu Öndərin başladığı böyük quruculuq, dövlətçilik siyasəti onun layiqli varisi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildi, yeni mərhələyə daxil oldu, böyük tarixi şəxsiyyətin banisi və yaradıcısı olduğu iqtisadi-siyasi inkişaf strategiyası həyatımızın bütün sahələrində uğurlara, böyük nailiyyətlərə yol açdı.

Ordu quruculuğuna xüsusi önəm verildi. Ordumuzun maddi, texniki təminatının daha da artırılmasına xüsusi diqqət yetirildi. Ali Baş Komandanın cəbhə bölgələrinə səfərləri, hərbi qulluqçularla səmimi görüşləri, Vətən müdafiəçilərinin döyüş əzmini, qələbə ruhunu daha da artırdı. Nəticədə üçrəngli bayrağımız indi ölkəmizin hər yerində: Şuşada, Əsgəranda, Laçında, Kəlbəcərdə, Ağdərədə, Ağdamda, Xocavənddə, Qubadlıda, Füzulidə, Cəbrayılda, Xocalıda, Xankəndidə qürurla dalğalanır.

Sonda Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin ansamblının hazırladığı konsert proqramı rəğbətlə qarşılandı.



**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi: Hərbi qulluqçuların mobil telefonlardan istifadə etməsi ilə bağlı qaydalar sərtləşdiriləcək

*Azərbaycan Ordusunda informasiya təhlükəsizliyi, eləcə də məxfilik qaydaları ilə bağlı mütəmadi olaraq şəxsi heyətlə maarifləndirici söhbətlər aparılır, iltizamnamələrə imza atılaraq bununla bağlı öhdəçilik götürürlər.*

Buna baxmayaraq bir neçə hərbi qulluqçunun xidmət zamanı smartfon tipli telefon istifadə etməsi, eləcə də şəxsi hesablarında xidmətə aid foto-video görüntüləri paylaşması aşkar edilib.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin sosial şəbəkələrdən istifadə edən hərbi qulluqçularla bağlı yaydığı məlumatda bildirilib.

"Bu hərbi qulluqçulardan bəziləri Müdafiə Nazirliyi rəhbərliyinin müvafiq əmr və sərəncamlarına zidd hərəkətlərinə görə ordu sıralarından xaric edilib, digərləri barəsində isə ciddi intizam tədbirləri görülüb.

Ordu mənsublarına yaraşmayan hərəkətlərlə hərbi etika qaydalarını, eləcə də mobil telefonlardan istifadə zamanı nizamnamələrin tələblərini və müvafiq əmrləri kobud şəkildə pozan hərbi qulluqçular barəsində bundan sonra da ciddi tədbirlər görüləcək.

Qaydaların daha da sərtləşdirilməsi ilə bağlı qanunvericilikdə müvafiq dəyişikliklərin edilməsi üçün aidiyyəti üzrə yeni təkliflər hazırlanaraq təqdim edilib", - deyə məlumatda qeyd edilib.

# Xəbərlər: hadisələr, faktlar

## ABŞ Şərqi Aralıq dənizi regionunda 12 min hərbçi yerləşdirəcək



Yaxın Şərqdə münaqişənin kəskinləşməsi fonunda Şərqi Aralıq dənizi regionunda ABŞ Hərbi Dəniz Qüvvələrinin 10 gəmisi və 12 min hərbçisi yerləşdiriləcək. Onların bir hissəsi artıq regiondadır, digər hissəsi də yaxın zamanlarda gələcək.

"Nikkei Asia" nəşri bu barədə ABŞ Hərbi Dəniz Qüvvələrinin məlumatları əsasında apardığı hesablamalara istinadla məlumat yayıb.

Məlumata görə, artıq regiona göyərtəsində 4,5 mindən çox hərbçinin olduğu "Gerald Ford" aviadaşıyıcı gəmisi gəlib. Onu ümumilikdə 1,6 min dəniz piyadasının xidmət etdiyi beş gəmi müşayiət edir. Həmçinin Yaxın Şərqə 5 min hərbçi ilə "Dwight Eisenhower" aviadaşıyıcı gəmisi və göyərtəsində minə yaxın hərbçinin olduğu üç müşayiət gəmisi yollanıb.

Bir müddət öncə "The Washington Post" qəzeti və Fox News telekanalı Vaşinqtonun Yaxın Şərqə 4 mindən çox dəstək qüvvəsi göndərdiyini bildirib. "Bataan", "Carter Hall" və "Mesa Verde" gəmiləri ilə regiona göndərilən dəstək qüvvəsi Dəniz Qüvvələrinin hərbçilərindən, dəniz piyadalarından, habelə xüsusi təyinatlı qüvvələrdən ibarətdir. Oktyabrın 16-da ilk iki gəmi Oman körfəzində, üçüncü gəmi isə Aralıq dənizində görünüb. Onların yekunda hara yerləşdiriləcəyi barədə məlumat verilmir.

## Cənubi Koreya, ABŞ və Yaponiya birgə hərbi təlimlər keçirəcək



Cənubi Koreya, ABŞ və Yaponiya ilk dəfə olaraq Koreya yarımadası yaxınlığında müştərək hava təlimlərinə başlayacaq.

Üç ölkənin Hərbi Hava Qüvvələri oktyabrın 22-nə planlaşdırılan birgə təlimlər çərçivəsində B-52 qırıcılarının müşayiəti ilə bir sıra uçuşlar həyata keçirəcək.

Qeyd edək ki, Birləşmiş Ştatlar, Yaponiya və Cənubi Koreya liderləri ABŞ prezidentinin "Camp David" iqamətgahında görüş zamanı KXDR-in artan nüvə və raket təhdidlərinə cavab olaraq təhlükəsizlik sahəsində əməkdaşlığı gücləndirmək barədə razılığa gəliblər.

Vaşinqton, Tokio və Seul ötən həftə yeddi ildə ilk dəfə Koreya Yarımadasının cənubunda üçtərəfli dəniz təlimləri keçirib.

## KİV: ABŞ Ukraynaya ATACMS ballistik raketləri verib



ABŞ Rusiya ərazisindəki hədəflərə zərbə endirməmək şərti ilə Ukraynaya təxminən 20 ədəd ATACMS taktiki ballistik raketi verib.

Raketlərin Kiyevə verilməsi barədə qərar onların Ukraynaya tədarükü zamanı Rusiyanın mümkün zərbələrindən ehtiyat edildiyi üçün gizli saxlanılıb.

Kiyev həmin raketlərdən Rusiya ərazisinə zərbələr üçün istifadə etməmək barədə öhdəlik götürüb. Ukraynanın öhdəliyi Birləşmiş Ştatların Rusiya ərazisi kimi tanımadığı Krım, Donbas, Zaparojye və Xersonun işğal altında olan ərazilərinə şamil edilmir. Müvafiq öhdəliyin tələb olunması Rusiyanın qırmızı xətlərindən birinin keçilməsindən və müharibənin daha da genişlənməsindən ehtiyatlanan amerikalı rəsmilərin narahatlığı ilə bağlıdır.

Ağ evin Milli Təhlükəsizlik Şurasının mətbuat katibi Eydrienn Uotson Vaşinqtonun Kiyevə 165 kilometr uçuş məsafəsi olan ATACMS taktiki ballistik raketləri verdiyini təsdiqləyib.

**AZƏRTAC-ın materialları əsasında**

# "Qalib olmaq çox qürurvericidir"

Uzun illərdir Heydər Əliyev adına Hərbi İnstitutun hərbi orkestrinin kollektivi müxtəlif ölkələrdə keçirilən beynəlxalq festivallarda iştirak edir, Azərbaycan musiqisini bütün dünyada sevdirir. Çox qürurvericidir ki, bu gün orkestr festivallarda təkcə hərbi marş və mahnılarımızı deyil, xalq və bəstəkar mahnılarını da böyük məharət və yüksək bacarıqla ifa edir. Buna görə də tamaşaçılar onları alqışlarla qarşılayıb, elə alqışlarla da yola salırlar. Hərbi orkestrin kollektivi harada, hansı ölkədə olursa-olsun, festivallardan müxtəlif mükafatlarla, fəxri fərmanlarla qayıdır. Musiqimizi hər yerdə təbliğ edən və sevdirən hərbi orkestrin yaradıcı kollektivi bu günlərdə Türkiyənin Bursa şəhərində keçirilən "Bursa 3-cü Beynəlxalq Orkestrlər Festivalı"nda ölkəmizi layiqincə təmsil edərək, tamaşaçılar qarşısında Azərbaycan musiqisini böyük məharət və bacarıqla səsləndirib. Festivalda yüksək peşəkarlıq nümayiş etdirən hərbi musiqiçilərimiz tamaşaçılar tərəfindən rəğbət və hörmətlə qarşılanıblar. Qardaş Türkiyədən ölkəmizə sevinc və xoş təəssüratlarla qayıdıblar.






Heydər Əliyev adına Hərbi İnstitutun hərbi orkestrinin Türkiyənin Bursa şəhərində keçirilən beynəlxalq festivaldakı fəaliyyətini ətraflı öyrənmək üçün təhsil ocağına üz tutduq. Hərbi orkestrin rəisi - dirijoru, polkovnik-leytenant Fariz Məmmədzadə ilə görüşdük. Söhbət zamanı onunla yaxından tanış olduq. Sonra bizi beynəlxalq festivalla bağlı maraqlandıran sualları orkestrin rəisinə ünvanladıq. Onun ömür yoluna qısaca nəzər salanda öyrəndik ki, zabit Fariz Məmmədzadə 1977-ci ildə Füzuli rayonunun Merdinli kəndində dünyaya göz açıb. Kiçik yaşlarından musiqiyə böyük həvəs göstərib. Böyüyəndə musiqi təhsili almağı arzulayıb. Arzularını həyata keçirmək üçün 1993-cü ildə Türkiyə Cümhuriyyətinin paytaxtı Ankara şəhərindəki Hərbi Musiqi Məktəbində oxumağa yollanıb. Burada musiqinin sirlərinə daha da dərindən yiyələnib. Təhsilini başa vurduqdan sonra Müdafiə Nazirliyinin nümunəvi hərbi orkestrində xidmətə başlayıb.

Bursa şəhərində keçirilən beynəlxalq orkestrlər festivalından xoş təəssüratlarla qayıdan zabit Fariz Məmmədzadə dedi ki, biz həmişə ölkəmizi festival və müsabiqələrdə layiqincə təmsil etməyə çalışırıq. Sevindirici hal odur ki, çalışqanlığımız və peşəkarlığımız sayəsində məqsədimizə nail oluruq. Uğur və zəfərlərimizin davamlı olması üçün musiqi kollektivimiz daim öz üzərində çalışır, peşəkarlığını artırır. Hərbi marş və mahnılarımızı, xalq musiqisini beynəlxalq festivallarda səsləndiririk. Əgər belə demək mümkündürsə, musiqimizi dünyaya sevdirməkdə davam edirik. Bundan qürur duyuruq. Bu ilin iyul ayında Qazaxıstan Respublikasının paytaxtı Astana şəhərinin 25 illiyinə həsr olunmuş "Astana - mədəniyyət karvanı" adlı birinci beynəlxalq hərbi-musiqi festivalı keçirildi. Hərbi-musiqi festivalında ölkəmizi Heydər Əliyev adına Hərbi İnstitutun hərbi orkestri də təmsil edirdi. Biz indiyə qədər dünyanın aparıcı dövlətləri olan Türkiyədə, Rusiyada belə hərbi-musiqi festivallarında iştirak etmişik. Harada, hansı ölkələrdə keçirilən festivallarda olmuşuqsa, qəlbləri riqqətə gətirən musiqimizlə ölkəmizi layiqincə təmsil etmişik. Bu hərbi-musiqi festivalından böyük uğurlarla, xoş təəssüratlarla qayıtmışıq. Astana şəhərində keçirilən hərbi-musiqi festivalı da bizim üçün olduqca səmərəli və uğurlu oldu. Təbiidir ki, belə beynəlxalq musiqi festivallarının mütəmadi olaraq keçirilməsi dostluğa, qardaşlığa xidmət edən tədbirlərdir. Festivalların keçirilməsi həm də xalqların bir-biri ilə təcrübə mübadiləsidir, bir-birinin musiqisinə hörmət və ehtiramdır. Hərbi-musiqi festivalları iştirak edən ölkələrin musiqisini dinləmək, onun tarixini öyrənmək baxımından çox dəyərlidir. Musiqi sərhəd tanımır, o insanlara mənəvi güc verən tükənməz bir qüvvədir. Dünyanı dolaşan festivallar müxtəlif mədəniyyətlərin bir-biri ilə görüşüdür. Həmişəki kimi Astanada keçirilən festival musiqimizi, mədəniyyətimizi təbliğ etmək bizim üçün dəyərli bir tribuna oldu. Biz Azərbaycan musiqisini bu tribunadan bütün dünyaya səsləndirdik.

Türkiyənin "Bursa şəhərində keçirilən 3-cü Beynəlxalq Orkestrlər Festivalı"na da böyük həvəslə yola düşdük. Onu da deyim ki, bu festival artıq 3-cü ildir ki, Bursa şəhərində keçirilir. Hərbi orkestrimiz keçirilən hər üç festivalda iştirak edib. Tamaşaçıların böyük marağına səbəb olan festival sentyabrın 29-dan oktyabrın 2-nə qədər davam etdi. Festivala 3 xarici ölkədən - Qazaxıstan Respublikasından, Bosniya-Hersoqovinadan və Azərbaycan Respublikasından hərbi orkestr gəlmişdi. Bundan başqa da Türkiyənin ayrı-ayrı bölgələrindən gəlmiş 14 yerli hərbi orkestr festivalda iştirak edirdi. Bu, hansısa bir yarışma deyildi, bu, bir musiqi şənliyi, musiqi bayramı idi. Konsert proqramları əsasən Bursada və Bursa ətrafındakı bir neçə şəhərdə keçirildi. Festival ənənəvi olaraq yürüşlə başladı. Yürüş başa çatandan sonra axşam Bursa şəhərinin müxtəlif yerlərində konsert oldu. Əvvəlcədən səhnələr qurulmuş, hər şey yüksək səviyyədə təşkil olunmuşdu. Festivalın ikinci günü biz səhər-səhər İnegöl şəhərində konsert verdik. Həmin günün axşamında isə İznik şəhərinə getdik. Maraqlı konsert poqramı ilə çıxış etdik. Şəhər sakinləri bizi çox böyük sevgi ilə qarşıladılar. Konsert proqramlarında həm türk mahnıları, həm də milli musiqilərimizi ifa etdik. Həmçinin milli musiqi alətlərimiz olan balaban, zurna, qaval və başqalarından istifadə etməklə rəngarəng konsert proqramı ilə tamaşaçılara mənəvi zövq verdik.

Festivalın bir anını heç vaxt unuda bilmirəm. Konsert proqramlarının davam etdiyi günlərdə Azərbaycanın bir-birindən gözəl musiqilərini ifa edəndə Bursa şəhərinin küçə və prospektlərindən keçəndə sakinlər bizi iftixar dolu baxışlarla süzürdülər. Bizə qalib ölkənin düşmən üzərində zəfər qazanmış hərbçiləri kimi baxırdılar. Bundan qürur duymamaq, iftixar hissləri keçirməmək mümkün deyildi. Doğrudan da, qalib olmaq, zəfər qazanmaq çox qürurvericidir. Bu gözəl tarixi anları yaşamağı şəhidlərimiz qanları ilə bizə nəsib ediblər. Bütün bunlara görə onlara minnətdarıq.

2023-cü ildə yaddaqalan səfərlərimizdən biri də Gürcüstan Respublikasına oldu. Həmin günlərdə gürcü xalqı müstəqilliyinin 105 illiyini böyük təntənə ilə qeyd edirdi. Bu əlamətdar gün münasibətilə ölkənin paytaxtı olan Tbilisidə parad keçirildi. Biz paradda bu ölkənin hərbi orkestri ilə birləşmiş şəkildə hərbi marşları səsləndirdik. Musiqi kollektivimiz hərbi marşlarla yanaşı, Azərbaycan musiqisini də məharətlə ifa etdi. Buna görə də böyük tamaşaçı rəğbəti qazandı.

İnanırıq ki, Heydər Əliyev adına Hərbi İnstitutun hərbi orkestri bundan sonra da dünyanın hər yerində Azərbaycan musiqisini səsləndirəcək və sevdirəcək. Ölkəmizi, ordumuzu iştirakçıları olacaqları musiqi festivallarında layiqincə təmsil edəcək. Biz həmişə onlardan xoş soraqlar alacağıq.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycan akrobatları Avropa çempionatında iki qızıl medal qazanıblar



Akrobatika gimnastikası üzrə Azərbaycan yığma komandasının üzvləri Daniel Abbasov və Murad Rəfiyevdən ibarət kişi cütlüyü Bolqarıstanın Varna şəhərində keçirilən 31-ci Avropa çempionatında qızıl medal qazanıb.

Onlar balans hərəkətlərində bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Bundan başqa, Ağasif Rəhimov və Raziyə Seyidlidən ibarət qarışıq cütlük temp hərəkətlərində Avropa çempionu olub.

## Azərbaycan gimnastları Avropa çempionatında gümüş medal qazanıblar



Akrobatika gimnastikası üzrə Azərbaycan yığmasının üzvləri Bolqarıstanın Varna şəhərində keçirilən 31-ci Avropa çempionatında gümüş medal qazanıblar.

Nəzrin Zeyniyeva, Zəhra Rəşidova və Anahita Bashiridən ibarət qadın qrupu (gənclər) temp hərəkətləri proqramında fəxri kürsünün ikinci pilləsinə yüksəlib.

## Azərbaycan karateçisi Avrasiya Kubokunda iki medal qazanıb



Başqırdıstanın Sterlitamak şəhərində karatenin bütün növləri üzrə IX Avrasiya Kuboku keçirilib.

Yarışda ölkəni Azərbaycan Sindo-ryu və Pencak-silat Federasiyasının idmançısı Elxan Cəfərov təmsil edib.

70 kiloqramdan yuxarı çəki dərəcəsində çıxış edən E. Cəfərov iki bürünc medala sahib çıxıb. O, 40 yaşadək idmançıların yarışında həm kumite, həm də kata yarışlarında üçüncü pilləni tutub.

Avrasiya çempionatında 15 ölkədən 100-dən artıq idmançı birincilik uğrunda mübarizə aparıb.

## Dünya çempionatında iştirak edəcək Azərbaycan karateçiləri bəlli olub



Karate üzrə Azərbaycan millisinin Macarıstanın paytaxtı Budapeştdə keçiriləcək dünya çempionatı üçün heyəti açıqlanıb.

Nüfuzlu yarışda ölkəni ümumilikdə 18 idmançı təmsil edəcək. Kumite yarışlarında Əminağa Quliyev (60 kiloqram), Tural Ağalarzadə (67 kiloqram), Fərid Ağayev (75 kiloqram), Turqut Həsənov (84 kiloqram), Asiman Qurbanlı (+84 kiloqram), Fidan Teymurova (50 kiloqram), Mədinə Sadıqova (55 kiloqram), Renata Ərəbli (61 kiloqram) və İrina Zaretska (68 kiloqram) qüvvəsini sınayacaq.

Kişilərin komanda yarışlarında Firdovsi Fərzəliyev, Rafiz Həsənov (hər ikisi 67 kiloqram) və Murad Hacızadə (+84 kiloqram) də yığmaya qoşulacaq. Qadın karateçilərin mübarizəsində isə fərdi yarışlarda qüvvəsini sınayacaq təmsilçilər döyüşəcəklər.

Karate üzrə dünya çempionatı oktyabrın 24-dən 29-dək Macarıstanın paytaxtı Budapeştdə keçiriləcək.

**AZƏRTAC-ın materialları əsasında**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Hüseynov Ülvi Fizuli oğluna məxsus AD № 0058667 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktorun müavini**
mayor
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
kapitan
Fuad CƏFƏROV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 602
Nüsxə 4760